**Leyla Firdovsi qızı ƏFƏNDİYEVA**
Qərbi Kaspi Universitetinin "Dizayn" kafedrasının müəllimi
Azərbaycan Rəssamlar İttifaqının,,
IWS Azərbaycan Sulu boya ittifaqnın,,
VIPAA.Beynəlmilləl Rəssamlar cəmiyyətnin,,
E-mail: Leylavazehi9@gmail.com

# MÜASİR İNCƏSƏNƏTDƏ SULU BOYANIN TEXNOLOGİYASI VƏ İŞLƏNMƏ TEXNİKASI

**Xülasə:**

Məqalədə müasir incəsənətdə sulu boyanın texnologiyasına və işlənmə texnikasına baxılmışdır.Sulu boyanın hansı xammaldan hazırlanması və bu məhsulu yeni texnikada subyektiv yanaşma ilə işlənməsindən bəhs edilir.Keyfiyyətli rəngin hazırlanması üçün istifadə olunan xammal, kimyəvi tərkib,məhsulun düzəltmə texnologiyası və sulu boyanın müasir incəsənət rəssamlarının yaradıcılığında tutduğu önəm yer alır.

**Açar sözlər:**Suluboya ,rəng, incəsənət , rəssam , rəssamlıq, texnologiya, piqment,texnika.

**UOT: 74.01/.09**
**DOİ:** https://doi.org/ 10.54414/DNTH7240

## Giriş

Sulu boya rəssamlığın ən qədim sahələrindən biridir. Bu rəssamlıq məhsulunun adı bir başa tərkibinə qatılaraq istifadə olunduğu sudan götürülüb. Latın dilində də "Akva"- Su deməkdir. Bu məhsul dövrümüzə qədər gəlmiş ən qədim rəssamlıq ləvazimatıdır.Hətta Qədim Misirdə də papirusların bəzədilməsində istifadə olunub. Çində kağızın yaradılması sulu boyanın inkişafına böyük təsir bağışladı.Aydındır ki, hal hazırda bildiyimiz tərkiblə deyil daha erkən düzəldilmiş kimyəvi tərkibli sulu boyalara rast gəlinib. Rəssamların sulu boya ilə işləmə texnikaları genişləndikcə yeni-yeni rəng piqmentləri artmağa başladı.Çünki əsərlərdə şərti təsvirlərdən çıxıb realizmə,gerçəkçiliyə maraq artdıqca buna tələbat yarandı.Öncələr Qədim Misir rəngkarlığında sulu boyaya ağ və qara rənglər qatılırdı.Bu da öz növbəsində boyanın arzu olunmayacaq qədər çirklənməsinə və öz şəffaflığını itirməsinə səbəb olurdu. Çində isə boyanın istifadəsi yalnız 2-3 rənglə (Qara və boz) məhdudlaşırdı. Hal hazırda isə bu boyaların rəng müxtəlifliklərinə, böyük rəng palitrasına rast gəlmək olur. Qədim dövrlərdəki kimi boyaları yalnız təbii tərkiblə deyil həmçinin kimyəvi tərkiblərin qarışımından da əldə edirlər. Əsas və şux rənglərlə yanaşı boyaların pastel (solğun) tonları, zərli rənglər və hətta daha mürəkkəb rəngləri var. Mürəkkəb rənglərə misal olaraq bir boyanın içərisində iki və ya üç rəngin qarışımı olduğunu gətirmək olar. Lakin bu rənglərin heç biri digərinin aktivliyini pozmadan istifadə edilir. Misal olaraq Yaqut dumanı, Sarı tuf ,Al qırmızı duman, Firuzəyi-çəhrayı duman rəngləri bu qəbildəndir.

**Boyanın necə hazırlanmasına diqqət yetirək.** Bildiyimiz kimi sulu boyanı iş prossesi zamanı fırçanı suya batıraraq istifadə edirlər. Bu yağlı boyalar üçün keçərli deyil.Alınan məhlul şəffaf və təmiz olmalıdır.

Bununla yanaşı rənglər parlaq olmalıdır. Bunun üçün də boyanı hazırlayan zaman tərkibinə əlavə olunan rəng tozunun yəni, piqmentin keyfiyyətli olmasına önəm vermək lazımdır. İstifadə olunan məhsullar piqment, ərəb saqqızı, bal, qliserin yağı, mixək yağı və bezi konservantlardır. Hazırlanma prossesi də, sulu boya ilə rəsmlər çəkmək qədər çox maraqlıdır. İşə başlayan zaman şüşə, düz və təmiz səth lazım olur. Üzərinə arzu etdiyimiz rəngi almaq üçün rəng tozunu əlavə edirik. Bu rəng tozu piqmenti başqa bir hamar səthlə dayanmadan əzib qarışdırırıq. Bu prosses bir az

zaman aparan amma, diqqət və məsuliyyət tələb edən prossesdir, çünki yaxşı qarışdırılmamış boya istifadəsi zamanı çətinliklər yarada bilər və hətta əl işini məhv edə bilər. Prossesi yekunlaşdırdığımıza əmin olduqdan sonra rəng tozunun kütləsinə uyğun olaraq ərəb saqqızını (Qumarabika) qaynadılmış və isti suya əlavə edirik və qarışdırırıq. Şəkil (1,2)



**Şəkil 1**



**Şəkil 2**

Bir müddət ərəb saqqızının qarışdırdığımız su ilə tam olaraq qarışıb kütlə yaratmasına imkan veririk. Sonra isə hazırlanmış kütləyə bir damla qliserin yağı və ya mixək yağı damcıladırıq. Qaynadılmış su bulaq suyuna nisbətən məhsula yumuşaqlıq verəcək. Suyun nisbətən qatılaşdığını gördükdə az-az damla şəklində götürüb hazırladığımız rəng tozuna əlavə edirik və ehmalca aramla dayanmadan qarışdırırıq. Hazır olmuş boyanı çox gözlətmədən spatula və ya xüsusi qaşıqlarla sulu boya üçün olan saxlanma rəng çanaqlarına boşaldırıq. Boya dolu kiçik çanaqları qurumağa qoyuruq çünki boyalar çox axışqan maye şəklində olur.Boya quruyan zaman piqmentlərin tərkibindəki su buxarlaşıb boyanın ümumi kütləsini azalda bilər.Bu normal prossesdir və ehtiyyac duyulduğu zaman çanağın üzərinə eyni hazırlanan rəngdən əlavə etmək olar.Ümumiyyətlə rənglərin hazırlanmasında istifadə olunan yağlar, rənglərin istifadəsindən sonra təsvirlərin uzun ömürlü olmasının, çatlaqlar yaradaraq naxoş görüntü yaranmasının qabağını alır.Kütləvi məhsul istehsalında da demək olar ki, eyni tərkib istifadə olunur. Sadəcə bəzi məhsulların kimyəvi tərkiblərində kiçicik dəyişikliklər olunur. Bu əsasən mürəkkəb rənglərə qatılan konservantlar da ola bilir.Həmçinin qablaşdırılmada fərqli ola bilər. Çanaq və ya tub forma seçilir. Şəkil (3,4)



**Şəkil 3**



**Şəkil 4**

**Sulu boya kağızlarının növləri**.Sulu boya ilə işləyən zaman çox önəmli olan kağız seçiminidə unutmamaq lazımdır.İşlənmə texnikasına görə həm Rəngkarlıq həm də Qrafik rəssamlığına aid olan bu sənət özü özlüyündə dəzgah rəngkarlığına aiddir.Yüksək keyfiyyətli pambıq kağızları sevən bu məhsul 300 mq çəkisində olan kağızların üzərində sulu texnikası ilə çox gözəl işlənilə bilir.Bunun üçün öncə böyük fırça yaxud süngərlə təmiz suyu kağızın üzərinə çəkirik və isladırıq.Bəzən isə bütöv kağızı təmiz su ilə dolu çanağın içərisinə salaraq isladırıq.

Bu kağızın uzun müddət islaq qalmasına kömək olur.Sulu texnika ilə işləyənlər üçün kağızın nəm qalması çox önəmlidir.Nəmliyi sabit tutmaq üçün kağızın altına yaş tənzif qoyulur və o kağızın qurumasının qarşısını alır .Bu nəmlikdən istifadə edən boyalar bir-birinə qarışaraq gözəl rəng ahəngləri yaradır.Sulu texnika ilə işlənən zaman adətən iş prossesi tez yekunlaşır.Bir gün içərisində iş prossesinə başlanılan əsər eyni gündə də sonlandırılır.

Digər kağız növü isə pambıq və sintetikin qarışığı olan vərəq olur.Tam olaraq pambıqdan istifadə olunmur.Bu kağızlar da sulu texnika ilə rəsmlər çəkmək üçün əlverişlidir. Lakin ən çox qarışıq texnika ilə işlənilməsi üçün münasibdir.Yəni həm su həmdə quru texnikada təsvir etmək olar.Bu zaman adətən böyük səthlər məsələn, fonlar sulu texnikada böyük fırçaların köməyi ilə işlənilir, üzərindəki digər doldurucu elementlər isə quru texnika ilə işlənilir. Şəkil(5,6,7) Ümumiyyətlə demək olar ki , bütün sulu boya kağızlarının səthi dənəvər fakturalı olur.Bu iri dənəvər formadan tutmuş kiçik dənəvər formalı səthlərə qədər seçimlər var.Bu

xüsusi səthlər sulu boyaya ecazkarlıq və xüsusi abu-hava qatır.


**Şəkil 5**


**Şəkil 6**


**Şəkil 7**


**Şəkil 8**

**Forma və tərkibinə görə fırça seçimi**.Digər önəmli nüanslardan biri fırça seçimidir.Fırçalar fərqli növdə və fərqli ölçülərdə olurlar.Əsasən tərkiblərinə görə fərqlənən fırçalar təbii tərkibli və yaxud sintetik tərkibli olurlar.Təbii tərkibli fırçalar müxtəlif heyvanların tüklərindən hazırlanır.Məsələn at,keçi,canavar,dələ.Şəkil(8).Hər heyvanın tükünün keyfiyyətinə görə fırçaların işlənmə materiallarıda dəyişir.Çox sərt fırçalar yağlı boyalar ilə işləmək üçün münasibdir.Quaş və akril boyalar üçün nisbətən yumşaq və özündə az su saxlayan fırçalar tərcih edilməlidir.Çünki bu boyalar sulu boya kimi su ilə işlənsə də suyu çox sevmir. Çox su boyanın rənginin ağarmasına gətirib çıxardır.Ümumiyyətlə ən yumşaq fırçalar sulu boyalar üçün nəzərdə tutulub.Çünki boya və su fırçanın tüklərinə hopmalı və kağıza ehmalca toxundurulan kimi tərkibindəki piqmenti buraxmalıdır.Tükləri arasında ən çox su saxlama qabiliyyətinə malik olan fırça sulu boya üçün ən əvəz edilməz fırça seçimidir.Bununla yanaşı hər hansısa bir boya ilə işləyən zaman fırçaların ölçülərinə fikir vermək lazımdır.Böyük səthləri yəni fonları böyük fırçalar ilə işləmək lazımdır.Çünki, kiçik fırça ilə rəsmin böyük fonu işlənilsə boya ləkələrinin qalması qaçınılmazdır.Orta boy fırçalar isə rəsmdə təsvir olunan nəsnələrin çəkilməsi üçün əlverişlidir.Kiçik ölçülü fırçalar da rəsmlərdə heçdə az rol oynamır.Detalların yəni,rəsmin xırdalıqlarının təsviri kiçik ölçülü fırçalar olmadan etmək mümkünsüzdür.

İncəsənət dayanmadan inkişaf etdikcə rəssamlar tərəfindən yeni-yeni fırça formaları düzəldilməyə başlanıldı.Buna misal olaraq qarışıq tərkibli fırçaları göstərmək olar.Yəni eyni fırçada həm təbii həmdə sintetik tərkibli tüklərdən istifadə olundu.Bu fırçalarda heçdə sırf təbii tərkibli fırçalardan keyfiyyət etibari ilə geri qalmır.Hətta bəzən dözümlülüyü ilə önədə keçir. Yeni nəsil fırçalardan bir digəri isə plastik olan, içərisinə su doldurularaq istifadə edilən fırçalardır.Bu fırçaları etüdə,səyahətə,plenaire gedən zaman istifadə etmək məqsədə uyğundur.İçərisinə suyu dolduraraq lazım olan zaman sıxılanda su axır və boyalardan su qabı istifadə etmədən işlətməyə imkan verir.Bu kistlərin həm tükləri həmdə gövdəsi yalnız plastik olur.Şəkil (9)


Şəkil 9

Fırçaları istifadə etdikdən sonra xüsusi qulluqlarınıda etmək lazımdır.Əlxsusda bu təbii heyvan tükü olan fırçalara aiddir.Fırçanı ılıq su ilə yuyub sonra başı aşağı olacaq şəkildə qurumağa qoyuruq.Bu tüklərin yenidən şux və səliqəli olmasına kömək edəcək.Təbii fırça yuyulan zaman sıxmaq olmaz.Bu tükləri qoparda,qıra bilər.Həmçinin rəsm çəkən zaman fırçanı boya üçün istifadə etdiyimiz suyun içərisində saxlamaq olmaz.Bu tüklərin əyilməsinə,qırılmasına və fırçanın çubuğunun şişməsinə gətirib çıxardacaq.Sintetik fırçaların isə təmizlənən zaman sadəcə su ilə yuyulması və ehtiyac olduğu təqdirdə isə salfet kağıza nəmini hopdurmaq olar.Ümumiyyətlə bu fırçaların xüsusi qulluğa ehtiyacı yoxdur.Yağlı boya fırçalarına gəldikdə isə bu fırçaları istifadədən sonra mütləq sabunla yumaq lazımdır.Ən yaxşı halda sənaye sabunu ilə fırçanın üzərində və tüklərinin arasında qalan qatı rəng artıqlarını təmizləmək olar.Əgər fırçada rəng qalsa bu

fırçanın yararsız hala düşməsinə gətirib çıxardacaq.Bərkimiş fırçanı yenidən bərpa edə bilmək üçün yağlı boyalara görə nəzərdə tutulan seyrəldici məhlulun içərisində saxlamaq lazım gələcək.Lakin bəzən seyrəldici məhlul belə fırçanın yenidən işlək hala düşməsinə kömək ola bilmir.

**Palitra çeşidlərinin seçimi.** Boya ilə işləyən zaman ən önəmli olan nəsnələrdən biri rəng palitrasıdır.Bu rənglərin qarışdırılması və yeni rənglərin alınması üçün ən önəmli vasitədir.Palitralar fərqli rəngdə ,formada və materialda olur.İşləmə texnikasına görə fərqli-fərqli palitralar seçmək olar. Məsələn taxta,şüşə,plastik və keramik.Taxta,şüşə palitralar adətən yağlı boya ilə işləyən zaman istifadə olunur.Üzəri boya ilə çirklənən zaman mastixinlə təmizlənilir.Sulu boya və quaş üçün əlverişsizdir.Rəngli plastik və şüşə formalı palitralar isə quaş,akril və ya tempra boyalar üçün uyğundur.Ağ plastik palitra həmçinin, keramik palitralar isə sulu boya üçün mükəmməl palitra çeşidləridir.Sulu boya tərkib etibarilə çox şəffaf və təmiz olduğu üçün onu yalnız açıq yəni ağ rəngli palitralarda istifadə etmək olur.Hətta məişətdə istifadə olunan ağ rəngli keramik qablardan da istifadə etmək olar. Sadəcə bunun düz səth olması kifayət edir.

Hal-hazırda dünyamızda bu sənət sahəsində fəaliyyət göstərən minlərlə rəssam var.Bu rəssamlar günümüzə qədər sulu boyanın təkmilləşməsində öz yeni tərzləri ilə yeniliklər gətirirlər.Sulu boya ilə həm minimalistik həm də mürəkkəb texnika ilə hipperrealizm, abstrakt üslubda işləyən yerli və əcnəbi rəssamlar vardır.

## ƏDƏBİYYAT SİYAHISI:

1. chrome-extension://efaidnbmnnnibpcajpcglclefindmkaj/ http://www.art-education

2. Журнала "ТРЕТЬЯКОВСКАЯ ГАЛЕРЕЯ" - Магия акварели. Автор - Ирина Шуманова

3. https://ru.wikipedia.org

4. Мир акварели: Техники, эксперименты, практические советы Авторы: Джин Хэйнс

5. https://artmoskovia.ru/9-predmetov-kotorye-nuzhny-dlya-risovaniya-akvarelyu.html

**Лейла Фирдовси кызы ЭФЕНДИЕВА**
Преподаватель кафедры «Дизайн» Западно-Каспийского университета
Союз художников Азербайджана
Ассоциация акварелистов Азербайджана IWS
VIPAA.Международное общество художников,
Член общественного союза ковров.
E-mail: Leylavazehi9@gmail.com

## ТЕХНОЛОГИЯ И ПРИЕМЫ ОБРАБОТКИ АКВАРЕЛИ В СОВРЕМЕННОМ ИСКУССТВЕ.

**Резюме:**

В статье рассматривается технология и техника обработки акварели в современном искусстве.Рассуждается, какое сырье используется для изготовления акварели и как этот продукт обрабатывается с субъективным подходом в новой технике.Включается значение его творчества.

**Ключевые слова:** Акварель, цвет, искусство, художник, живопись, техника, пигмент, техника.

**Leyla Firdovsi EFENDİEVA**
Teacher of the "Design" department at the Zapadno-Caspian University
Union of artists of Azerbaijan
Association of watercolorists of Azerbaijan IWS
VIPAA. International Society of Artists,
Member of the public carpet union.
E-mail: Leylavazehi9@gmail.com

## TECHNOLOGY AND TECHNİQUES OF WATERCOLOR PROCESSİNG İN CONTEMPORARY ART.

**Summary**

The article discusses the technology and technique of processing watercolors in contemporary art. It discusses what raw materials are used to make watercolors and how this product is processed with a subjective approach in the new technique. The significance of his work is included.

**Key words:** Watercolor, color, art, artist, painting, technique, pigment, technique.

**Daxil olub:** 28.04.2023